BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2014

UOT 002.2(091)

# M.Ə.RƏSULZADƏNİN MƏQALƏLƏRİNDƏ MAARİFLƏNMƏ VƏ MƏDƏNİYYƏT PROBLEMİ

**A.Q.ƏZİMOVA**
***Bakı Dövlət Universiteti***
***aygunazim@mail.ru***

*Məqalədə faktoloji materiallar əsasında Məmməd Əmin Rəsulzadənin məqalələrində maariflənmə və mədəniyyət probleminə baxışı nəzərdən keçirililir.*

*Bununla əlaqədar olaraq, konkret misallar gətirilir, mövzu ilə bağlı M.Ə.Rəsulzadənin müxtəlif illərdə mətbuatda nəşr edilən məqalələrinə istinad olunur. Məqalədə təqdim olunan faktlar bunu əsaslı şəkildə təsdiq edir.*

**Açar sözlər:** Məhəmməd Əmin Rəsulzadə, mətbuat tarixi, maarifçilik, mədəniyyət, dil

XIX əsrin sonlarında Azərbaycanın maarifpərvər ziyalıları milləti cəhalət və xurafat girdabından çıxarmaq, onun maariflənməsinə və mədəni tərəqqisinə kömək etmək yollarını axtarırdılar. Onlar başa düşürdülər ki, bunun üçün milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır.

XIX əsrin sonlarında xalqın ictimai-siyasi və elmi-mədəni səviyyəsini yüksəltmək, milli şüurunu formalaşdırmaq təşəbbüsü və ideyaları ilə çıxış edən yeni ziyalılar nəsli yetişirdi. Bu dövrdə maarifçilik məcrasında cərəyan edən ədəbi-bədii, publisistik fikir və qabaqcıl yaradıcı ziyalı hərəkatı mövcud proseslərdən kənarda qalmamış, eyni zamanda xalqı Qərb və dünya mədəniyyətinə qovuşdurmağa çalışmışdır.

XIX əsrin sonlarında Azərbaycan cəmiyyətində formalaşan mədəniyyət getdikcə aydın ümummilli səciyyə almış və bu da öz növbəsində milli şüurun inkişafına, milli birliyin möhkəmlənməsinə xidmət etmişdir. Bu zaman milli dil, tarixi keçmişə maraq, milli ləyaqət hissi, milli özünüdərketmə, vətən və vətənpərvərlik, xalqın taleyi, gələcəyi mədəni-tarixi tərəqqinin ən aktual məsələləri kimi qarşıda dururdu. Ölkədə maarifçilik ideyalarının yayılması ilə əlaqədar olaraq Azərbaycan mədəniyyətində demokratik fikirlər güclənir, ictimai-fəlsəfi fikirdə yeni sosial ideyalar qərarlaşırdı. Maarifçilik mənəvi mədəniyyətin bütün sahələrinin – ədəbiyyat, incəsənət, əxlaq və s.-nin inkişafına

yeni istiqamət verməklə mədəniyyətin strukturunda getdikcə radikal dəyişikliklər əmələ gətirmişdi. Mədəniyyət sistemində realist ədəbiyyat, demokratik ictimai fikir, elm və elmi biliklər ön plana keçməyə başlamışdı. Xalqımızın qabaqcıl ziyalı nümayəndələri Avropa, rus və Azərbaycan həyatına müqayisəli nəzər salır, vətənin sosial tərəqqi baxımından dövrün tarixi inkişaf səviyyəsindən geri qaldığını aydın görür və artıq «belə yaşamaq olmaz» qənaətinə gəlirdilər. Onlar milli həyatı, Azərbaycan cəmiyyətini iqtisadi, siyasi, mədəni gerilikdən xilas edib geniş sosial tərəqqi və maarif yoluna çıxarmaq barədə düşünür, yollar arayıb axtarırdılar.

AXC-nin yaradıcılarından biri olan, böyük ədib, mütəfəkkir və ictimai xadim M.Ə.Rəsulzadə də millətin tərəqqisi və gələcəyini onun maariflənməsində görür, maarifin milləti öz amalına, məqsədinə çatdıra biləcək ilkin vasitə hesab edirdi: «Xəlqin işıqlanması üçün ibtidai məktəblərin artması və bu məktəblərin mümkün olduqca xəlqin ruh və adəti ilə müvafiq olması heç şübhəsiz ki, ən əvvəlinci şərtdir» (2, 182).

M.Ə.Rəsulzadə maarif məsələsində ziyalılarımızın nöqsanlarına, səhvlərinə toxunur. O yazır: «Ziyalılar məscid məktəblərini bəyənməyib, onu ətalət, cəhalət ocağı adlandırıb xalqı «işkolalara» çağırdılar. Çünki bu tip məktəblərdə şagirdlərə dünyəvi elmlər öyrədilirdi. Bu məktəblər daha qabaqcıl, daha mütərəqqi məktəblər idi. Lakin xalq ruhuna, əxlaqına, ürf və adətinə müğayir olan ruslaşmaq «işkolasına» getmədi, məscid məktəb və mədrəsələrində qaldı. Əvəzində oraya bəzi bəyzadələrlə imtiyazlıların və sərvət sahiblərinin uşaqları getdilər. Təəssüflər olsun ki, oradakı təlim və tərbiyə üsulları bəyzadələri xalqdan tamamilə uzaqlaşdırdı. Həm də tək-tək adamların oxuması, təhsil alması xalqın maariflənməsi demək deyildi. Sonra rus-tatar tipində məktəblər açıldı, lakin bu məktəblərdən də bir nəticə hasil olmadı. Şübhəsiz ki, deyildiyi kimi, tək-tək adamların təhsil alması xalqa o qədər də böyük fayda vermirdi. Çox vaxt bu adamlar təhsil alıb xalqından aralı düşürdü. Xalq onu anlamırdı, o da xalqını: «Bir nəfərin işıqlanıb da «obrazovannı» olması o qədər də dərdə şəfa verəcək dərman deyildir. Çox kərə ayrı-ayrı fərdlərin böyük miqyasda işıqlanması çuxa əvəzinə palto, arxalıq əvəzinə frak, çarıq əvəzinə botinka geyməkdən, papaq əvəzinə silindir qoymaqdan və Tükəzban yerinə Liza xanım almaqdan ibarət olub qalır» (1, 496).

Sonra da fikrini sübuta yetirmək məqsədilə oxuculardan soruşur: «...Bakıda, ehtimal ki, yüzə yaxın diplom almış, təhsili-kəmal etmiş «vısoko obrazovannılarımız» vardır. Hanı bəs, nə üçün ehtiyaclarımız dəf olunmayır?

Odur ki, məqsəd tək-tək şəxsləri maarifləndirmək yox, xalqı maarifləndirməkdir. Fayda ancaq bundadır. «Fəqət ən lazım olan şey əvamın və kütleyinasın aydınlaşmasıdır. Çünki əsl millət odur. Bir cəmaət də ancaq kütleyinasının işıqlanması sayəsində işıqlanıb mədəni ola bilər» (1, 496).

Hələ o zamanlar yoxsul kütlə barəsində bu cür düşünmək dərin bilik və möhkəm inam tələb edirdi. O, yoxsul və avam kütləni millət adlandırır, millətin gələcəyini onun maariflənməsində görürdü. M.Ə.Rəsulzadə xalqın bütün

təbəqələrinin təhsil almasına ciddi əhəmiyyət verirdi. Onun fikrincə, təhsil almadan, maariflənmədən mədəniyyətə qovuşmaq, mədəni xalq olmaq qeyri-mümkündür. Bu məqsədə çatmaqdan ötrü isə əhali başdan-başa savadlanmalı, zəruri bilik əldə etməlidir. Məktəb həm də xalqın tərəqqisini şərtləndirən başlıca amillərdəndir. Məktəb olmasa, xalq öz istəyinə, amalına çata bilməz. Lakin bu məktəblər xalqın ruhuna, adət və ənənəsinə uyğun olmalıdır, əks təqdirdə onlardan heç bir fayda görünməz.

O, ana dilimizdə olan məktəblərin faktiki olaraq hüquqsuz olduğunu bildirməklə yanaşı, bunun qarşısını almaq üçün fraksiyaların birgə hərəkət etməli olduqlarının zəruriliyini yazırdı: “Təlimi-ümuminin ana dilində olmasını tələb etməkdən əlavə bu təlimin nə kibi məktəblər vasitəsilə təmini məsələsi var ki, bu xüsusda da fraksiyanın müəyyən nə kibi bir qərarda olduğu tamamilə anlaşılmalıdır” (3, 55).

Məktəblərdə dərs deyənlərin kimliyinə də nəzər yetirmək lazımdır. Xalqın tərəqqisi və təməddünü nöqteyi-nəzərindən dərs deyən ruhaniləri də tərbiyələndirmək lazımdır. Ona görə ki, kəndlərdə, şəhər və qəsəbələrdə «burnunun o tərəfini görməyən», əxlaq və mərifətdən uzaq, cahil mollalar da vardır. Belə mollalar maarif sahəsində yeniləşmənin əleyhinə çıxır, təlim və tərbiyə prosesini düzgün qura bilmirlər. Odur ki, dərs deyənlərin kimliyi bu mənada böyük əhəmiyyət kəsb edir. Mollalar dünyəvi biliklərə də yiyələnməlidirlər. Ətrafda baş verən hadisələrdən baş çıxarmalı, daim yeniliyə can atmalıdırlar. Mühafizəkar mollalar isə xalqı geriyə çəkir, irəliləməyə qoymur. «Deməк ki, mollaların qiyməti-şəxsiyyələri xəlqimizin tərəqqi və təməddünü nöqteyi-nəzərindən böyük bir əhəmiyyətə malikdir. Şübhəsiz ki, yeni elmlərdən bəhrəsiz, dünya və aləmdən xəbərsiz olan bir molla yeni üsul məktəbləri özünə rəqib görür və xəlq arasında köklənmiş əvam fikirliləri tərvicinə ruhani bir zövq duyur...» (2, 182).

M.Ə.Rəsulzadə yalnız ruhaniləri deyil, həm də müəllimləri yeni ruhda tərbiyələndirməyi lazım bilirdi. Müəllimlərin qarşısında bir sıra tələblər qoyurdu.

Bu tələblərdən ən başlıcası milli tələblər idi. Yəni müəllimlər ilk növbədə xalqın dilinə, adət-ənənəsinə və ruhuna bağlı insanlar yetişdirməliydi. Yoxsa özündən bixəbər «uçitellərdən» xalqa nə fayda olacaqdı? O cür «uçitellər»dən də yarımçıq «uçenik»lər əmələ gələcəkdi. «Müəllim uşaqlarına dərs verdiyi xalqın dilinə, adətinə aşina və onu sevər ruhlu və fəal bir xadim olursa, ancaq o zamandır ki, naqis də olsa, bizi tərbiyəyə mədar olan rus-müsəlman məktəblərindən faidə görəcəyiz. Yoxsa ortadakı kəndiliyindən bixəbər «uçitellər»dən yarımçıq «uçenik»lərdən başqa bir şey gözləmək əbəsdir» (2, 512). Beləliklə, M.Ə.Rəsulzadə məktəbləri yeniləşdirməklə bərabər orada dərs deyən ruhaniləri və müəllimləri də yeni ruhda tərbiyələndirməyi zəruri sayırdı. Onlar, hər şeydən əvvəl, mənsub olduqları xalqın dilini, adət və ənənəsini bilməli, sevməli və bu sevgini şagirdlərinə aşılamalıydılar. Əks-təqdirdə həmin şagirdlərdən xalqın dərdinə dərman olmayacaqdı. O, məqalələrində çar hökumətinin imperialist siyasətinə qarşı çıxaraq dilimizin məktəblərdə unutdurulmasına qarşı

çıxır, idarə və rəsmi yerlərdə rus dilinin aparıcı mövqe qazanması ilə razılaşmadığını açıq şəkildə bildirirdi: “Məktəblərimizdə ana dili xaricə qovulub oxu oxutmaq üçün rus dili təxsis olunmuş, sudlarda, məhəlli idarələrdə tatar dili tamam həqli bir dil kibi qəbul olunmuyor...” (3, 69).

Rəsulzadə, ümumiyyətlə, ibtidai təhsil probleminə xüsusi diqqətlə yanaşır, milli maariflənmə işində bunun son dərəcə əhəmiyyətli olduğunu vurğulayırdı: “Bizdə təlimi-ümuminin iki tərəfi vardır. Birisi xüsusi surətdə öz xərcimizə saxlanan məktəblərimizdir. Digəri də dövlət xərcinə açılan şkolalar- ruski-tatarskilərdir. Birincilər milli proqramla aparıla bilər, fəqət hüquqsuzdur. İkincilər hüquqlu idisələr də, proqramları milli degildir” (3, 54).

«Yatmışları» silkələyib oyatmaq, onların gözlərini açmaq, onları birləşdirib qabaqlarına düşmək, elmə, maarifə, mədəniyyətə doğru aparmaq lazım idi. Buna görə də, M.Ə.Rəsulzadə milləti bu işə kömək etməyə çağırırdı. Azərbaycan maarifçilik məktəbinin banilərindən H.Zərdabinin dəfn mərasimində M.Ə.Rəsulzadənin nitqindən bir parçaya diqqət yetirək: «Cəmaəti ayıltmaq, onu dərrakəli etmək üçün nə lazımdır? – maarif, maarif, maarif! Ancaq elm və bilik ilə cəmaət özünün nə olduğunu və nə edə biləcəyini qana bilər...

İştə bu qoca ədib də haman cəmaətin hər dərdinə dərman olan ürfan toxumlarını səpmişdir ki...

Həmin bu maarif mücahidi olan piri-rövşənzəmirə xitabən cəmaətin maarifmənd və mütərəqqi olduğunu özünə məslək tutan «Nicat» maarif cəmiyyəti tərəfindən deyirəm ki, yat, Allah sənə rəhmət eyləsin!!!» (“İrşad” qəzeti, №122, 2 dekabr 1907)

Dünya kulturoloji fikrinin müxtəlif tərifləri ilə müqayisəli təhlil aparanda, bu mütəfəkkirlərin mədəniyyətə dair milli-ideoloji mövqeyi daha qabarıq görünür. Milli diriliyi bütünlüklə mədəniyyətə bağlayan M.Ə.Rəsulzadə yazırdı: «Məncə, mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur. Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz dirilyi ilə özünə xüsusi, xüsusi olduğu qədər də qiymətli bəzi şeylər əlavə edir ki, bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalnız özünün bədbəxtliyini deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil edir» (1, 462).

M.Ə.Rəsulzadə «Dirilik nədir?» məqaləsində mədəniyyət anlayışına fəlsəfi baxımdan yanaşırdı. Onun fikrincə, mədəniyyət bəşəriyyətlə təbiətin davasından qazanılan qənimətdir. Hər hansı millət daha bacarıqlı və daha qüvvətlidirsə, o millət təbiətdən aldığı qənimətdən daha çox istifadə edir. Tərəqqini anlamayan, mədəniyyətdən xəbərsiz olan millətlərin öhdəsinə ancaq işləmək düşür. Onlar nə qədər işləsələr də, zəhmətlərinin bəhrəsini görmürlər. «Gördüyümüz mədəniyyət, içində bulunduğumuz ümran iştə bəşəriyyətin təbiətlə etdiyi dəvalardan aldığı qənimətlərdir. Hər hankı millət ki, təbiətə qarşı icra olunan müharibədə daha bacarıqlı və daha qüvvətlidir, o millət təbiətdən alınan qənimətdən də daha ziyadə istifadə edir, hələ yalnız bununla qalmayıb dünyanın nemətlərini təqsim edərkən diri millətlər özlərinə hər kəsdən ziyadə pay çıxarırlar...» (“Dirilik” jurnalı, №1).

Milli mədəniyyətə böyük əhəmiyyət verən ədib milli mədəniyyətlə millət anlayışlarının mənasını eyniləşdirirdi. Şübhəsiz ki, bu milli mədəniyyətə verilən yüksək qiymət idi. O, milli mədəniyyətə dünya mədəniyyətinin tərkib hissəsi kimi baxırdı. Ədibin fikrincə bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalnız həmin millətin bədbəxtliyi deyil, həm də bəşəriyyətin böyük nöqsanıdır. «Bəncə, mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur. Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz diriliyi ilə o yekuna xüsusi olduğu qədər də qiymətli bəzi şeylər əlavə edir ki, bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalnız özünün bədbəxtliyini deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil edir».

O, dinin mədəniyyətə güclü təsir etdiyini göstərmişdir. Bu baxımdan islam dininə etiqad edən xalqlar mədəniyyətcə bir-birinə yaxınlaşırlar. Lakin müsəlmanlar tərəqqiyə yad nəzərlərlə baxdıqlarına görə hazırda dərin böhran keçirirlər. Ona görə də, başqalarının mədəniyyətinə əsir düşürlər, başqalarının tərəqqisindən faydalanırlar. «Biz, yəni islam aləmi və islam millətləri dinimizin sağlam əmrlərindən çox uzaqlaşaraq dünya diriliyinə qərib bir nəzərlə baxmağa başladığımız zamandan bəri başqalarının rizəxarı və onlardakı tərəqqi və ümranın əsir və dəstgiri olduq».

M.Ə.Rəsulzadə «Milli dirilik» silsilə məqalələrinin birinci hissəsində mədəniyyətin kökündən daha geniş yazır. Əgər dil millətin zahiri və batinidirsə, daxili aləminin ifadəçisidirsə, yaşadığı həyat, keçirdiyi tarix, uzun illər ərzində qazandığı adət-ənənə təməl daşıdır. Buna görədir ki, ayrı-ayrı xalqların mədəniyyəti bir-birindən fərqlənir və hər xalqın mədəniyyəti özlüyündə müstəsna əhəmiyyət kəsb edir. M.Ə.Rəsulzadənin fikrincə, milli mədəniyyətlərə qiymət vermək qeyri-mümkündür. Ona görə ki, milli mədəniyyət əvəzsizdir, təkrarolunmazdır.

Milli mədəniyyətin təşəkkülü üçün müqəddəm şərt sərbəstlikdir. Millət öz mədəniyyətini inkişaf etdirməkdə sərbəst olmalıdır. M.Ə.Rəsulzadə bu fikri aşağıdakı kimi ifadə edir: «Alman milləti - german irqi özünün istiqlalını təmin eləməsə və öz mədəniyyət xassəsini mühafizə etməsə idi, bəşəriyyət Şopenhauer, Fixte, Göte, Faust, Qottenberq və Livter gibi dühaları da görməyəcək idi. Fransa digər bir irq və qövmiyyət içində münhəll olub da öz bənliyini itirsə də, bəşəriyyət XIX əsrin fikirləri üzərinə hökumət edən əfgar qəhrəmanlarını - Jan Jak Russo, Didro, Mönteskye, Viktor Hüqo və Volterləri də qaib edəcəkdi...».

O, eyni zamanda mədəniyyətin milli çərçivə daxilində məhdudlaşmasının əleyhinə olmuş, milli mədəniyyətlərin daim bir-birilə təmasda olmasını, bir-birindən qarşılıqlı surətdə faydalanmasını istəmişdir. Başqa sözlə, mədəniyyət bir yerdə durmamalı, hər an inkişaf etməlidir. Öz kökünü, təməlini mühafizə etmək şərtilə digər mədəniyyətlərin məqbul cəhətlərini əxz etməlidir.

M.Ə.Rəsulzadə yazır: «Bugünkü islam millətləri, əzcümlə, biz Qafqasiya türkləri başqalarının iddiası, qədəh-nəfsdə ifrat edən özümüzkülərdən bir qisminin dəxi etirafına rəğmən pək də mədəniyyətə biganə bir xalq deyilik.

Biləks Qafqasiyadakı qonşularımızın hər hangısı ilə tutaşdırılsaq (müqayisə edilsək) mədəniyyət etibarilə onlardan geridə olmadığımız görülər. Biləks şeir, musiqi, adət və ənənatlar tədqiq olunarsa, qonşularımızın mədəniyyətcə bizə borclu olduqları anlaşılar» (2, 530).

M.Ə.Rəsulzadə «Getdiyimiz yol» məqaləsində mədəniyyətin müasirləşməsindən, günün tələbinə uyğunlaşmasından danışır. O, mədəniyyətin yaşayışı asanlaşdıran, insanları bir-birinə yaxınlaşdıran və kamilləşdirən hər nə varsa, hamısını əxz etdiyini bildirir. M.Ə.Rəsulzadə bu sıraya məişət və düşüncə tərzini, iş üsulunu, cəmaət işlərindəki qaydaları, ev tərbiyəsini aid edir. «Əvət ətrafımızdakı millətlərdə gördüyümüz parlaqlıq, bilgi, bacarıq, zindəlik və çalaklıq mədəniyyətdən ziyadə müasirlikdir. Onların bu gün qibtəmizi mücib üsuli-məişətləri, tərzi-təfəkkür və təhrirləri, alış-verişdəki üsuli-aşinalıqları, cəmaət işlərindəki baxış və gedişləri, ev tərbiyəsindəki üsul və rəftarları milli bir mədəniyyət məhsulu olmaqdan artıq müasir bir təqlid nəticəsidir. Onlar avropalaşmışlar, məişətə uyğun olan, yaşayışı asanlaşdıran müasir nə varsa, mümkün etdikləri qədər onları qəbulda tərəddüd göstərməmiş, bu xüsusda bizdən irəli düşmüşlər» (2, 530).

M.Ə.Rəsulzadənin nəzərində Avropa mədəniyyəti ən yetkin, ən müasir mədəniyyətdir. Bu mədəniyyətin milliliyə xətər gətirməyən cəhətlərini götürmək günün tələbindən doğan zərurətdir. Hər hansı mədəniyyət günü-gündən irəli gedirsə, digər mədəniyyətlərlə qarşılıqlı ünsiyyətə girib zamanın tələbinə cavab verirsə, o mədəniyyət bütün xəta-bəlalardan sovuşacaqdır.

M.Ə.Rəsulzadə milli mədəniyyətdən tamamilə kənara çıxıb müasirləşmək adı ilə avropalaşmağın da əleyhinədir. Onun fikrincə, bir millətin hansısa bir millətin surətinə çevrilmək istəyi düzgün deyil: «Bir zaman vardı ki, biz daima Qərbə bənzəmək istər, sənət ilə və musiqimizdə avropalıları kor-koranə təqlid edərdik. Fəqət bu təqlid məəttəəssüf tamamilə avropalılar içində münhəm olub da yox olmaqdan ibarət olardı. Hətta indi də bir çox hallarımız böylədir. Fəqət «Nicat»ın «Şərq gecəsi»ndə tərtib etdiyi proqram göstərdi ki, avropalıları təqlid etməni yavaş-yavaş öyrəniyoruz. Avropalılardan sənətə race olan xüsuslarda ancaq şəkil və tərtibi almalıyıq, yoxsa məna ilə ruh milli qalmalıdır. Vəilla vücuda gətirəcəyimiz ədəbiyyat, musiqi və sənət gülünc bir hal almış olar. Millilikdən çıxar, başqalarının natəmam bir kopiyası olar».

M.Ə.Rəsulzadə insanların adət-ənənələrində, əxlaqi dəyərlərində milli, dini bayramların yerini də düzgün müəyyənləşdirirdi. O, hər bir millətin ədəbiyyatında, incəsənətində mühüm yer tutan mərasimlərə, bayramlara xüsusi diqqət yetirirdi. «Novruz münasibətilə» məqaləsində milli mədəniyyətdəki bəzi çatışmazlıqlara baxmayaraq, bundan irəliyə doğru addımlar atıldığını da göstərirdi: «... yavaş-yavaş iflic halından çıxıyoruz. Mədəniyyətimiz sənəti-vücud hasil etməyə başlayır, ruhumuz da, vücudumuz da sağalıyor» (1, 315).

Azərbaycan ədəbiyyatının problemi M.Ə.Rəsulzadəni çox ciddi şəkildə düşündürürdü. Ədəbiyyat və incəsənətlə daha gənc yaşlarından məşğul olmağa başlayan, dram, şeir yazan M.Ə.Rəsulzadə bununla kifayətlənmir, dövründə

yazılmış əsərləri, kitabları, teatrlarda oynanılan dram əsərlərini, tamaşaları, operaları və s. tənqidlə də məşğul olurdu.

M.Ə.Rəsulzadəyə görə, ədəbiyyat millətin daxili dünyasının bir tərəfi və millətin əxlaqi inkişafının nümunəsidir. «Tənqidə ehtiyac var» məqaləsində M.Ə.Rəsulzadə ədəbiyyatla bağlı fikirlərini davam etdirərək yazırdı: «Biliriz ki, hər millətin ədəbiyyatı hissiyyat (sentimentalizm) ilə başlamışdır. Hər hanki bir ədəbiyyat tarixini alsanız, orada əvvəlcə gələn ədiblərin əsərlərində yer üzündə qabil tətbiq olunan fikirlər və yol göstərmələrdən ziyadə hissiyyata həyəcanverici nalələr, fəryadlar, dəvətlər və nidalar görərsiniz. Bunun məntiqi də var. Çünki yatmışlara xitab ediyorsunuz... Hissiyyat dövrəsində bir dərəcəyədək hər kəs məzurdur. Nə kimi bir lisan və biliklə olsa, məqsəd yatmışı oyatmaqdır. Yatmışı oyandırdıqdan sonra məsələ tamamilə dəyişiyor. İndi artıq yuxudan gec qalxıb da özünü karvandan geridə və məhləkədə görən adama yol göstərmək qabaqda gedənlərə nə surətlə çatmaq mümkün olduğunu bildirmək dövrəsi gəlir ki, bu dövrəyə realizm (həqiqət) dövrəsi deyiliyor. Biz Azərbaycan müsəlmanlarının həyatı dəxi indi həqiqi bir dövrəyə giriyor. Tərəqqi və intəha hənuz hissiyyat dövrəsindən çıxmaq üzrədir. Artıq layla çalan ədəbiyyatdan qorxu qalmamış. Fəqət yuxuqaçırdan ədəbiyyat da dəngəsər etmək üzrədir. Layla çalan ədəbiyyatı öldürmək yolunda əda etmiş olduğu xidməti dərəcəsində şayani-təhsin olan hissiyyat ədəbiyyatı gözləri açılmaqda olan adamları düz yol ilə aparıb sərmənzilə çıxarmaq üçün kafi deyildir. Bunun üçün ədəbiyyatı-həqiqiyyə lazımdır. Bunun misalı isə bizdə kamali-cəsarətlə deyə bilərəm ki, hənuz yoxdur. Fəqət gəlməyəcək də deyildir» (1, 255-256).

M.Ə.Rəsulzadə yazır ki, bütün insanlar kimi, müsəlmanlar arasında da azad fikirli insanlar ola bilər. Ona görə müsəlmanların azad fikirli insanlara çevrilməsi üçün, onlarla işləmək lazımdır: «Mədəniyyət əkmək üçün müsəlman camaati necə münbit bir torpaqdır. Ancaq müdəbbir (tədbirli) əkinçi lazımdır ki, bu yerləri şum eyləyib əksin. O əkinçilər də biz millət cavanlarıyıq. Bizə vacibdir ki, heç bir müaminət və çətinliyə baxmayıb, var gücümüz ilə çalışaq ki, camaatimizi düçar olduğu fəlakətdən xilas edək» (4, 218).

Rəsulzadə ədəbiyyatın mədəniyyətin inkişafına istiqamətləndirilməsinin zəruriliyini qeyd edir. O, buna misal olaraq N.Nərimanovun «Bahadır və Sona» əsərini göstərir: «Məncə ədəbiyyat, hələ onun hekayənəvislik qismi, həyati eynilə təsvir etməklə mükəlləfdir. Ona görə öylə bir surətdə yaradılmalıdır ki, oxucularını alçaq hissiyyat və dəni rəftarlardan iyrəndirsin, yüksək fikirlər və ali hissiyyatlarla, biləks imrəndirsin. Bunu, bir ədib kamilən ifa edə bilmək üçün iki vergiyə malik olmalıdır: biri vüsəti-qərihə, o biri cəsarəti mədəniyyə.

Allah Nərimanova bunların ikisini də vermişdir.

Ehtimal ki, bəzilərincə ikinci bir az da artıq hesab olunur. Fəqət məncə keşki pulları artıq düşənlər əvəzinə Allah bizə cəsarətli, mədəniyyələri çox olanlardan bollu-bollu ehsan edəydi» (1, 280).

M.Ə.Rəsulzadə Üzeyir Hacıbəyovun bu dövrdə səhnələşdirdiyi operaları həm tənqid etmiş, həm də bunun müsbət tərəflərinə toxunmuşdur. O, Üzeyir

Hacıbəyovun «Leyli və Məcnun» operasının xalqın mənəvi əxlaqında böyük rol oynadığını yazmışdır: «Leyli və Məcnun» ilk opera olmağından keçəndən sonra yeganə məziyyəti varsa, məncə, haman xalq arasında mütədavil, ona görə də milli ruha aşina nəğmələrin ahəngdar bir məcmuəsi olmağıdır» (1, 301).

M.Ə.Rəsulzadə qeyd edir ki, milli mədəniyyəti inkişaf etdirmək üçün Üzeyir Hacıbəyov kimi mütəxəssislərə ehtiyac var: «Zənn ediyoram ki, möhtərəm musiqarımız Üzeyir bəyin milli nəğməxanlarımız olan saz aşıqları ilə milli romanlarımız olan aşıq hekayələrini daha ziyadə tədqiq edəcək olurlarsa, əsl türk aləmində payidar ola biləcək əsərlərini bundan sonra yazacaqlardır. Bunun üçün, əlbəttə, lazımdır ki, lazım gələn elmlərlə silahlandıqdan sonra Peterburqu tərk ilə millət ruhu və millət musiqisinə aşina olsunlar. Əlbəttə ki, böylə də edəcəklərdir» (1, 306-307).


**ƏDƏBİYYAT**

1. Rəsulzadə M.Ə. Əsərləri (1909-1914), II c. Bakı: Şirvan-nəşr, 2001, 526 s.
2. Rəsulzadə M.Ə. Əsərləri (1915-1916), III c. Bakı: Elm, 2012, 596 s.
3. Rəsulzadə M.Ə. Əsərləri (1917- aprel 1918), IV c. Bakı: Qanun, 2013, 456 s.
4. Hüseynov Ş. Müstəqilliyin çətin yolu…Biz hara gedirik. Bakı: Azərnəşr, 1996, 480 s.


**ПРОБЛЕМЫ ПРОСВЕЩЕНИЯ И КУЛЬТУРЫ В СТАТЬЯХ М.Э.РАСУЛЗАДЕ**


**А.Г.АЗИМОВА**



**РЕЗЮМЕ**

В данной научной статье автор на основе фактических материалов подробно рассматривает тему проблемы просвещения и культуры в статьях Маммед Эмин Расулзаде.

В связи с этим, автор приводит ряд примеров, ссылаясь на статьи опубликованные в прессе в разные годы.

Освещенные в статье факты, обстоятельно подтверждают это.



**Ключевые слова:** Маммед Эмин Расулзаде, история прессы, просвещение, культура, язык


**THE PROBLEMS OF ENLIGHTENMENT AND CULTURE IN THE ARTICLES OF M.A.RASULZADEH**


**A.G.AZIMOVA**



**SUMMARY**

The article studies the problems of enlightenment and culture in the articles of Mammad Amin Rasulzadeh on the basis of specific facts.

Therefore, the author cites a number of examples, basing on the articles published in the press in different years.

The issue is elucidated on the basis of facts.



**Key words:** Mammad Amin Rasulzadeh, history of press, enlightenment, culture, language.